# "ELMLƏR DOKTORLARI VƏ PROFESSORLARIN SAYI DURMADAN ARTIR, ALİMLƏRİN SAYI İSƏ AZALIR"

*Milli Məclisin Beynəlxalq Münasibətlər və Parlamentlərarası Əlaqələr Komitəsinin sədr müavini Gültəkin Hacıbəylinin müsahibəsi*



***- Gültəkin xanım, mətbuata son müsahibənizdə Azərbaycan təhsilinin mövcud vəziyyəti ilə bağlı fikirlərinizi səsləndirmisiniz və bu, cəmiyyətdə geniş rezonansa səbəb olub. Eyni zamanda, sizə də yaxşı məlumdur ki, təhsillə elm daim paralel addımlayır. Bu baxımdan, bəs Azərbaycan elminin vəziyyəti ilə bağlı nə deyərdiniz? Bu yerdə onu da qeyd edək ki, ötən ilin sonlarında – dekabr ayında akademik, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin "Azərbaycan" qəzetində gedən məlum "İctimai və humanitar elmlər: zaman kontekstində baxış" adlı yazısı Azərbaycan cəmiyyətində, xüsusilə elmi dairələrdə, ziyalılar arasında geniş rezonansa səbəb oldu. Belə olan halda, üstündən bir müddət keçsə də, ancaq aktullığını itirmədiyi üçün sizin də həmin yazı və ona göstərilən fərqli münasibətlərlə bağlı mövqeyinizi bilmək istərdik.***

- Sonuncu müsahibəmdə də qeyd etdiyim kimi, təhsili olmayan millətin gələcəyi yoxdur və millətini düşünən hər bir insan təhsilin, elmin problemlərinə biganə qala bilməz. Akademik Ramiz Mehdiyevin bu sahəyə diqqəti də onun vətəndaş mövqeyindən olan, ziyalı mövqeyindən qaynaqlanan yanaşmaydı. Düşünürəm ki, bir vətənpərvər ziyalı, təcrübəli dövlət xadimi kimi Ramiz müəllim də gözəl anlayır ki, təhsil sahəsində olan problemlər aradan qalxmadan digər sahələrdə mövcud problemlərin həllində ciddi uğurlar əldə etmək mümkün deyil. Elmdə mövcud olan problemlər konkret xarakter daşıyır. Məsələn, Azərbaycan Milli Elmlər Akademiyasında (AMEA), ümumiyyətlə, elmimizdə ciddi islahatlara ehtiyac var. Bu gün elmə ayrılan xərclərin azlığından gileylənириksə, – mən şəxsən hər büdcə müzakirəsi zamanı bu barədə fikirlərimi bildirirəm və qeyd edirəm ki, büdcənin ən azı 4 faizi elmi xərclərə ayrılmalıdır, əks təqdirdə elmin istehsalatda faydası ilə qarşılaşmaq mümkün olmayacaq, dünya ölkələrinin əksəriyyətində də büdcənin 4 faizi elmi xərclərə ayrılır, – eyni zamanda, onu da nəzərə almalıyıq ki, elmə qoyulan sərmayənin artırılması məhz elm sahəsində islahatlarla paralel şəkildə həyata keçirilməlidir. Çünki bu sahənin, doğrudan da, çox böyük islahatlara ehtiyacı var. Məsələn, AMEA sistemində onlarla institut fəaliyyət göstərir və bu institutların hər birində yüzlərlə elmi işçi çalışır. Mən tam məsuliyyətlə demək istəyirəm ki, bu institutlarda çalışan əməkdaşların böyük bir hissəsi, bəlkə də 60-70 faizi ballastdır. Akademiya nəzdindəki hər bir institutda ən azı 150 nəfər elmi işçi çalışır, ancaq bu institutun yükünü, orada həyata keçirilən elmi araşdırmaların bütün ağırlığını ən yaxşı halda 30-40 nəfər çəkir, daşıyır. Digərləri isə, sadəcə olaraq, fon, görüntü yaratmaqla məşğuldurlar. Təbii ki, belə olan halda burada da müəyyən problemlər yaranır. Düzdür, haqlı olaraq sual verə bilərsiniz ki, elmi işçilərin əmək haqları aşağıdır. Bir elmi işçi 150 manat alırsa, bununla razılaşmaq olmaz. Misal üçün, yol polisi əməkdaşlarının 500-600 manat məvacib alması fonunda həyatını millətin intellektual "genefondu"nun yaradılmasına həsr edən, illərini elm yolunda şam kimi əridən insanların zəhmətinin belə aşağı qiymətləndirilməsi yolverilməzdir. Amma digər tərəfdən nəzərə alsaq ki, ən yaxşı halda 30-40 nəfərin görməli olduğu iş 150 nəfərə həvalə edilir və bu 150 insan bu 30-40 nəfərin almalı olduqları əmək haqqını alır, burada vəziyyət öz-özünə aydınlaşacaq. Bu, bir daha sübut edir ki, AMEA sistemində çox ciddi struktur islahatlarına ehtiyac var...

***- Başqa Avropa ölkələrini demirik, heç uzun illər bizimlə bir – postsovet məkanında olan ölkələrin bir çoxunda belə, artıq Elmlər Akademiyaları fəaliyyət göstərmir. Fəaiyyət göstərənlər isə daha çox elmi işlərlə, elmi yaradıcılıqla bağlı prezentasiyaların təşkilatçısı kimi çıxış edirlər. Bu baxımdan, ən yaxşı halda, AMEA-da ən vacib institutları və ən yararlı, peşəkar mütəxəssisləri***

***saxlamaq şərtilə bu qurumun strukturunda ciddi, geniş dəyişikliklərə ehtiyac yoxdurmu, daha doğrusu, bu yöndə dəyişikliklərə start verməyin vaxtı deyilmi?***

– Sözsüz ki, bunlara böyük bir zərurət, ehtiyac var. AMEA-da elə institutlat var ki, bir-birilərini təkrarlayır, bir-birinin dublikasiyasından başqa bir şey deyil. Eyni zamanda, elə institutlar var ki, onlar eyni profilli institutlardır. Bu baxımdan, bunlarda daha çox islahatlar aparmağa ehtiyac var. Eyni zamanda, bu gün əksər ölkələrdə elm daha çox universitetlərin nəzdində cəmləşir və universitetlərin tərkibində elmi mərkəzlər fəaliyyət göstərir ki, onlar da elmin və təhsilin səviyyəsinin yüksəldilməsini, tələbələrin praktik vərdişlərinin artırılmasını, nəticə etibarilə, elmlə təhsilin qırılmaz əlaqəsini, üzvi vəhdətini təmin edirlər. Ancaq bəzi ölkələrdə, o cümlədən Şərqi Avropa ölkələrində Elmlər Akademiyaları mövcuddur. Bununla belə, onlar da islahatlara məruz qalandan sonra kifayət qədər forma, məzmun dəyişikliyinə uğrayıblar. Məsələn, yanvar ayında Rumıniya parlamentinin dəvətilə bir qrup millət vəkili bu ölkədə rəsmi səfərdə olduq. Səfər çərçivəsində Rumıniyanın bir sıra qabaqcıl ziyalısı, görkəmli elm xadimləri ilə görüşlərimiz oldu. Rumıniyada da Şərqi Avropa ölkələrinin əksəriyyətinin ənənəsinə uyğun olaraq Elmlər Akademiyası fəaliyyət göstərir. Lakin burada cəmi 2000 elmi işçi çalışır. Onu da nəzərinizə çatdırmaq istəyirəm ki, Rumıniyanın əhalisi 20 milyondur, Azərbaycanın isə 9 milyon. Bu gün kimsə Rumıniyanın dünya elminin Alma Materi olmadığını söyləyə bilər, ancaq bu yerdə etiraf etməliyik ki, Azərbaycan da dünyaya elm ixrac edən ölkə deyil. Göründüyü kimi, müqayisə öz-özlüyündə çox ibrətamizdir. Təəssüf hissi ilə qeyd etməliyəm ki, bu gün Azərbaycanda elmlər doktorları, elmlər namizədləri elmi dərəcələrin, professor və dosent vəzifələrinin ictimai dəyəri çox ucuzlaşıb. Bu elmi dərəcələrə, elmi vəzifələrə verilən ictimai qiymət aşağı düşüb. Bu gün Azərbaycanda elmlər doktorları və professorların sayının durmadan artdığı vaxtda əsl alimlərin, elm fədailərinin sayı azalmaqdadır. Millətini, dövlətini sevən hər bir ziyalını bu gerçəklik narahat etməyə bilməz və akademik Ramiz Mehdiyevin ictimaiyyətə açıq müraciətinin təməlində də, əslində, bu narahatlıq durur. Peyğəmbərimiz Məhəmməd ﷺ öz ümmətindən "beşikdən qəbir evinəcən elm öyrənin" tələbində bulunub. Dahi mütəfəkkir və Şərq fikrinin ən böyük yaradıcılarından olan Nizami Gəncəvi də "qüvvət elmdədir, başqa cür heç kəs heç kəsə üstünlük eyləyə bilməz" söyləyib. Bu gün elm müasir dünyada ən kəsərli silah, ən etibarlı müdafiədir. Elmə qoyulan sərmayə ən effektiv, yəni, ən çox, ən davamlı divident təmin edən sərmayədir. Elmi bir binaya bənzətsək, onun özülü, təməl sütunu, bünövrəsi təhsildir və təhsilin səviyyəsinin aşağı olduğu bir halda, sözün həqiqi mənasında, ciddi elmdən danışmaq da mümkün deyil.

***– Eyni zamanda, həmin məqalədə qeyd olunur ki, Azərbaycan elmini əyalət ab-havasından xilas edərək, onun dünya elm – həm də təhsil – məkanına inteqrasiyasına can atılmalıdır...***

– Burada bir fikir səsləndirəcəyəm və istəməzdim ki, bu fikrimi neobolşevizm kimi qəbul etsinlər. Mən düşünürəm ki, bu gün Azərbaycanda elmlər doktorları, elmlər namizədləri arasında çox ciddi bir attestasiyaya ehtiyac var və əminəm ki, obyektiv attestasiya aparılsa, bu elmi dərəcələri daşıyanların böyük əksəriyyətinin buna layiq olmadığı ortaya çıxacaq. Düzdür, bizim çox ləyaqətli ziyalılarımız, böyük elm xadimlərimiz, fədailərimiz var, amma düşünürəm ki, bunlarla yanaşı çox sayda saxta elmlər doktorlarımız, elmlər namizədlərimiz və professorlarımızın olması, ilk öncə, həmin elm fədailərinin, əsl alimlərin zəhmətinə, yuxusuz gecələrinə olan hörmətsizlikdir. Düşünürəm ki, bu, ümumiyyətlə, cəmiyyətdə, sözün həqiqi mənasında, mənəvi bir aşınmanın, deqradasiyanın yaşanmasına səbəb olur. Bu baxımdan, mən Ramiz müəllimin Azərbaycan elminin əyalətçilik səviyyəsindən qaldırılması ilə bağlı fikirlərini də birmənalı olaraq bölüşürəm. Eyni zamanda onu da demək istəyirəm ki, Azərbaycanda müdafiə edilən namizədlik və doktorluq dissertasiyalarının əksəriyyətinə nəzər salsaq, görərik ki, ortada doğrudan da, çox böyük problemlər var. Bəzən elə mövzularda müdafiələr təşkil edilir ki, onların taleyi, belə demək mümkünsə, Biləcəridən o yana qaranlıq görünür. Bəzən, ümumiyyətlə, məzmunsuz, heç bir nəzəri, praktik əhəmiyyəti olmayan mövzuda dissertasiyalar müdafiə edilir və onların nəyə gərək olduğunu anlamaqda da çətinlik çəkirsən. Bir çox hallarda ali məktəblərin 3-cü kurs referatları səviyyəsində olan dissertasiyaların, bəzən də "yazdırılmış", saxta işlərin müdafiəsi insanı dəhşətə gətirir. Lakin elmi nə qədər tənqid etsək də, unutmamalıyıq ki, elm özözünə yaranmır. Azərbaycan elminin əyalət səviyyəsindən çıxması üçün ilk növbədə Azərbaycan təhsilini bu vəziyyətdən qurtarmaq lazımdır. Çünki əyalət səviyyəli təhsil dünya səviyyəli elm yetişdirə bilməz.

***– Bütün bu deyilənlərin fonunda Azərbaycan elmini və təhsilini bugünkü durumdan çıxarmaq üçün hansı addımların atılması daha vacibdir?***

– Mən, doğrudan da, o fikrin tərəfdarıyam ki, xüsusilə təhsildəki mövcud vəziyyətin aradan qaldırılması üçün çox ciddi – kordinal addımlar atılmalıdır. Mən 96 saylı Goranboy seçki dairəsindən millət vəkili seçilmişəm və qeyd edim ki, bir

vaxtlar dünya şöhrətli kurort şəhəri olan Naftalan da mənim seçki dairəmə daxildir. Naftalanda cəmi iki orta ümumtəhsil məktəbi fəaliyyət göstərir və hər iki məktəb Avropa standartları səviyyəsində təmir edilib, şagirdlərin və müəllimlərin, pedaqoji kollektivin istifadəsinə verilib. Eyni zamanda, hər iki məktəb yüksək səviyyədə təchizatı ilə fərqlənir. Gözəl fənn otaqları, laboratoriyaları, kompüter sinifləri var. Bir sözlə, şagirdlərin yüksək təhsil əldə etmələri üçün tam şərait mövcuddur. Bu iki məktəbdə birlikdə 907 şagird təhsil alır və 907 şagirdin təlim-tərbiyəsi ilə 219 müəllim məşğul olur. Yəni, orta hesabla hər müəllimə dörd şagird düşür. Faktiki olaraq, müəllimlər repetitorlar statusunda çıxış edirlər. Əgər bir müəllim – dörd şagir nisbəti mövcuddursa, bu, məktəb yox, daha çox fərdi təhsil ocağı sayıla bilər. Ancaq gəlin görək yalnız və yalnız dörd şagirdi hazırlayan, təhsil verən bu müəllimin göstəriciləri necədir? Rəsmi statistikaya görə, sonuncu buraxılış imtahanlarında Naftalan şəhərinin göstəricisi – müxtəlif tədris fənləri üzrə mənimsəmə faizi 21 faiz təşkil edib. Bu, qeyri-kafidən də aşağı bir göstəricidir. Konkret qeyd etməli olsam, xarici dil üzrə mənimsəmə faizi sıfır faiz, riyaziyyat fənni üzrə mənimsəmə sıfır faiz təşkil edib və sair. Belə olan halda, yəni, bu mənzərəyə nəzər yetirərkən yaranan sualların da cavabını tapmaq mümkündür. Avropa standartlarına uyğun yenidən qurulmuş, demək olar ki, yenidən tikilmiş, tam təchiz olunmuş, kömpüterlə təmin edilmiş, eyni zamanda, bir müəllimin yalnız dörd şagirdlə məşğul olduğu bir məktəbdə əgər tədrisin keyfiyyəti qeyri-kafidən də aşağı səviyyədədirsə, bu, artıq çox ciddi şəkildə həyacan təbili çalmaq üçün əsas verir. Xatırlatmaq istəyirəm ki, inkişaf etmiş Avropa ölkələrində bir müəllim 20-25 şagirdin təlim-tərbiyəsi ilə məşğuldur. Azərbaycanda isə bu göstərici 8 nəfərdir. Yəni, bir müəllimə 8 şagird düşür və məhz bu prizmadan yanaşsaq, Azərbaycanda təhsilin keyfiyyəti Avropa səviyyəsindən 3 dəfə yüksək olmalıydı, Naftalanda isə təhsilin keyfiyyəti Azərbaycandakı təhsilin səviyyəsindən 2 dəfə yüksək olmalıydı. Ancaq reallıq tamamilə bunun əksinədir. Bu gün məktəblərimizdə, xüsusilə bölgə məktəblərimizdə yüzlərlə, hətta minlərlə saxta diplomlu pedaqoqlar çalışır. Gürcüstanın, Dağıstanın, adı və ünvanı məlum olmayan və heç vaxt normal fəaliyyət göstərməmiş "ali təhsil müəssisələrinin" diplomlarını əldə etmiş "müəllimlərin" də çox ciddi bir attestasiyaya ehtiyacı var. Azərbaycanda on minlərlə müəllim var ki, onlar artıq çoxdan Azərbaycan təhsil sistemində ballasta çevriliblər və onların orta məktəblərdə fəaliyyəti gənc nəslin təlim-tərbiyəsinə nəinki töhfə verir, əksinə gənclərimizin gələcəyinə zərbə vurur. Təhsil sistemində də ciddi attestasiya aparılmalı və ancaq peşəkar pedaqoqlar, səviyyəli kadrlar, yüksək biliklərə malik müəllimlər dəyərləndirilməli, qiymətləndirilməlidirlər. Belə olan halda, müəllimlərin də əmək haqlarının qaldırılması üçün əlavə imkanlar yaranmış olur. Açıq etiraf edək ki, hər hansı bir sahədə uğur qazanmaq üçün bunun başlıca şərtlərindən biri bu sahədə çalışanların sosial təminatının təmin edilməsidir. 100, 150, 200 manat məvacib müqabilində, sözsüz ki, yüksək səviyyəli müəllimlərdən yüksək səviyyəli peşəkarlıq, tədris də tələb etmək mümkün deyil. Düşünürəm ki, yalnız attestasiya aparılacağı təqdirdə, təhsilimizdə ballast olan kadrlardan tədricən, mərhələ-mərhələ yaxa qurtarılacağı halda, sözsüz ki, müəllimlərin də əmək haqlarını bir neçə dəfə artırmaq mümkün olacaq. Bu da heç şübhəsiz, nəticə etibarilə, Azərbaycan təhsilinin keyfiyyətinə öz müsbət töhfəsini verəcək. Təhsilin keyfiyyətinin yüksəlməsini təmin edəcək tədbirlər sırasında təhsil idarəçiliyinin və bütövlükdə, təhsil sisteminin islahatları ilə yanaşı, təhsil müəssisələrinə, məktəblərə və xüsusilə də, şəhər və rayon təhsil şöbələrinə yerli icra hakimiyyəti orqanlarının yersiz müdaxilələrinin, lazımsız kitab, qəzet satışı və s. ilə "yüklənmələrin" qarşısının alınması da mühüm şərtdir.

***– Orta məktəb dərsliklərinin, xüsusilə 1-4-cü siniflər üçün nəzərdə tutulmuş dərsliklərin vəziyyətinə də münasibətinizi öyrənmək istərdik. Məsələn, 1-4-cü siniflər üçün nəzərdə tutulmuş bəzi dərsliklərdə – "Ana sözü", "Oxu", "Həyat bilgisi" dərsliklərində Azərbaycanın dövlət bayrağı, onun rəngləri təhrif olunur. Bununla yanaşı, müstəqillik tariximiz, Azərbaycanın ikinci dəfə müstəqillik əldə etdiyi və rəsmi bayramlar sırasına daxil olunduğu gün təhrif edilir. Daha doğrusu, Azərbaycanın dövlət müstəqilliyinin 1991-ci ildə deyil, 1992-ci ildə əldə etdiyi qeyd olunur...***

– Mən ürəkağrısı ilə demək istəyirəm ki, dərsliklərin keyfiyyəti Azərbaycan təhsilinin növbəti ağrılı problemlərindən biridir. Mən bu barədə "525-ci qəzet"də silsilə məqalələrlə çıxış edən hörmətli yazıçımız Afaq Məsudun yazılarını hər zaman maraqla oxuyuram və gülürəm. Bu göz yaşları içində gülüşdür. Çünki bu dərsliklərlə biz gələcəyimizi baltalayırıq. Bu dərsliklər nəinki övladlarımızın zövqünü korlayır, dünyagörüşünün formalaşmasına zərbə vurur, bir çox hallarda onlar, ümumiyyətlə, normal şəxsiyyətin yetişdirilməsinə əngəldir. Əgər bu dərsliklərdə Azərbaycanın dövlət atributlarından biri olan müqəddəs üçrəngli bayrağımızla, dövlət müstəqillik günümüzlə bağlı təhriflər əksini tapırsa, onlar haqqında hansısa əlavə bir fikir söyləməyə də ehtiyac yoxdur.

**Kamil HƏMZƏOĞLU**
*"QHT Xəbərləri"*